**UOT 81 41; 801. 7**
**https://doi.org/10.59849/2218-4783.2026.1.162**

# QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİ İLƏ AREALLIQ TƏŞKİL EDƏN BƏZİ NAXÇIVAN TOPONİMLƏRİ

# SOME NAKHCHIVAN TOPONYMS FORMING AREAL RELATIONS WITH THE TOPONYMS OF WESTERN AZERBAIJAN

**Cəmilə MƏHƏRRƏMOVA***

## XÜLASƏ

Məqalədə Qərbi Azərbaycan və Naxçıvan Muxtar Respublikasının ərazisinə daxil olan, areallıq təşkil edən toponimlərin etnolinqvistik təhlilindən bəhs olunur. Belə vahidlər hər bir dilin və həmin dilin daşıyıcısı olan xalqın tarixinin, etnogenezinin, keçdiyi inkişaf yollarının öyrənilməsində oynadığı müstəsna rol baxımından böyük elmi və siyasi əhəmiyyət daşıyır. Müəyyən dövr ərzində bir sıra siyasi səbəblərlə əlaqədar, tarixi yerlərimiz düşmən tapdağı altında qaldığına görə, Qərbi Azərbaycanın bir sıra yer adları dəyişdirələrək başqa adlarla adlandırılmışdır. Tədqiqatda adında milli kimliyini ehtiva edən qədim Azərbaycan toponimlərindən, indiki Ermənistan ərazisində mövcud olan bir neçə məntəqə adının etimologiyası tədqiqata cəlb olunmuş və eyni adlı toponimlərin Naxçıvan Muxtar Respublikası sərhədlərində də mövcud olması araşdırılmışdır. Burada Qərbi Azərbaycan ərazisinə daxil toponimlərdən bir neçəsinin (Arpa, Kotan, Axta, Kürdkənd, Almalı, Arazdəyən, Alxan pəyəsi) etnolinqvistik təhlili aparılmışdır.

**Açar sözlər:** *Qərbi Azərbaycan, toponim, areallıq, Arpa, Kotan, Axta, Kürdkənd, Almalı, Arazdəyən, Alxan pəyəsi.*

## ABSTRACT

This article presents an ethnolinguistic analysis of toponyms located within the territories of Western Azerbaijan and the Nakhchivan Autonomous Republic that form areal relations. Such units play an exceptional role in studying the history, ethnogenesis and developmental stages of any language and the people who speak it, and therefore possess great scholarly and political significance. Due to certain political circumstances during specific historical periods, many of the region's historic places remained under occupation, and a number of toponyms in Western Azerbaijan were renamed with foreign designations. The study examines several ancient Azerbaijani toponyms that preserve national identity in their names and analyzes the etymology of several settlements currently located within the territory of present-day Armenia. The research also investigates the existence of identical toponyms within the borders of the Nakhchivan Autonomous Republic. The ethnolinguistic analysis focuses on several toponyms belonging to the Western Azerbaijani region, such as Arpa, Kotan, Axta, Kürdkənd, Almalı, Arazdəyən and Alxan pəyəsi.

**Keywords:** *Western Azerbaijan, toponym, areality, Arpa, Kotan, Axta, Kürdkənd, Almalı, Arazdəyən and Alxan pəyəsi.*

## GİRİŞ

Son dövrlər Qərbi Azərbaycan toponimlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu, Azərbaycanda gedən bir sıra mədəni-siyasi məsələlərlə əlaqədar mühüm işlərdən biri kimi nəzərdən keçirilir. Bu məqsədlə Qərbi Azərbaycanın qədim yer adlarını yenidən tədqiq etmək, bu adların yenidən özünə qaytarılması üzərində mühüm işlər görülür. Ona görə də tarixi yer adlarının tədqiqi

*AMEA NaxçıvanBölməsi, e-mail: cemilenihatmeherremova@gmail
ORCİD: 0009-0007-4494-1143

mühüm əhəmiyyət kəsb edir və bu səbəbdən də toponimlərin bir çox xüsusiyyətləri tədqiqata cəlb olunur. Bu xüsusiyyətlərindən biri də areallıqdır. Şübhəsiz ki, bu hal Azərbaycan dilinin toponimik sistemində də özünü göstərir. Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən toponimlər də bu baxımdan istisna təşkil etmir. Belə ki, Naxçıvanın toponimik sistemi Qərbi və Cənubi Azərbaycan ərazilərinin toponimləri ilə yanaşı bir çox türk və qeyri-türk dövlətlərin toponimik sistemi ilə areallıq təşkil etməkdədir. Bu fakt isə dilçilik, tarix və coğrafiya kimi üç mühüm elm sahəsinin vəhdətində meydana gəlmiş toponimikanın sahib olduğu praktik rolun əhəmiyyətini bir daha vurğulayır. Qədim Azərbaycan torpaqlarında qondarma Ermənistan Respublikasının yaradılması mərhələli şəkildə həyata keçirilmiş və həmin siyasətin bir hissəsi kimi işğal olunmuş ərazilərin adları dəyişdirilərək, yaxud təhrif edilərək erməniləşdirilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, bəhs olunan siyasət iki istiqamətdə aparılmış, həm Azərbaycan SSR ərazisindəki coğrafi adlar, həm də Ermənistan SSR ərazisindəki türk mənşəli coğrafi adlar dəyişdirilərək saxtalaşdırılmışdır. Deməli, biz təkcə Azərbaycan ərazisinin onomastik vahidlərini araşdırmaqla kifayətlənməməli, eyni zamanda indiki Ermənistan ərazisində yerləşən qədim yurd yerlərimizin tarixi adları istiqamətində də tədqiqatlar aparmalıyıq. Belə vahidlər hər bir dilin və həmin dilin daşıyıcısı olan xalqın tarixinin, etnogenezinin, keçdiyi inkişaf yollarının öyrənilməsində oynadığı müstəsna rol baxımından böyük elmi və siyasi əhəmiyyət daşıyır. Müəyyən dövr ərzində bir sıra siyasi səbəblərlə əlaqədar, tarixi yerlərimiz düşmən tapdağı altında qaldığına görə, Qərbi Azərbaycanın bir sıra yer adları dəyişdirələrək başqa adlarla adlandırılmışdır. Buna görə bu toponimlərin yenidən öyrənilməsi, qədim yer adlarımızın tədqiq olunaraq ictimaiyyətə təqdim olunması aktual məsələ kimi irəli sürülür. Qərbi Azərbaycan toponimlərinin tarixən türk mənşəli və özünü folklorda da mühafizə etməsini müşahidə edirik. Belə adlar özünü daha çox çay, dağ, kənd adlarında üzə çıxarır.

Tarixi yaddaşımızın bərpasına və qorunaraq gələcək nəsillərə çatdırılmasına hər zaman böyük önəm verən Azərbaycan Prezidenti İlham Əliyev 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən deyib: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb". Adında milli kimliyini ehtiva edən qədim Azərbaycan toponimlərindən, indiki Ermənistan ərazisində mövcud olan bir neçə məntəqə adının etimologiyası tədqiqata cəlb olunmuş və eyni adlı toponimlərin Naxçıvan Muxtar Respublikası sərhədlərində də mövcud olması araşdırılmışdır.

## ARPA, KOTAN, AXTA, KÜRDKƏND, ALMALI, ARAZDƏYƏN, ALXAN PƏYƏSİ KƏNDLƏRİNİN ETNOLİNQVİSTİK TƏHLİLİ

Qərbi Azərbaycan torpaqları qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin toponimlərinə öz təsirini göstərmişdir. Bu toponimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, məna əsasına görə müxtəlif yollarla formalaşmışdır. Toponimlərin bir çox hissəsi uzaq tarixi keçmişimizlə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Toponimlərin öyrənilməsinin elmi, siyasi əhəmiyyəti və bəzi toponimlərdə özünü göstərən areallıq məsələsinin həmin arealda yaşayan tayfalar, eləcə də bu tayfaların fövqündə coğrafi obyektin milli mənsubiyyətinin təyin edilməsində mühüm rol oynayır. Qərbi Azərbaycan və Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan eyni adlı toponimlərin təhlilinə nəzər yetirək.

**Arpa kəndi.** İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında, indi Keşişkənd (Yeğeqnadzor) rayonunda kənddir. Arpa çayı ətrafında yerləşir. Burada 1321-ci ildə tikilmiş qədim alban abidəsinin – məbədinin qalıqları indi də durur. Rus dilli mənbələrdə Arpı şəklində də qeyd olunub [Григорьев , 1833, s. 20; Şahbazov, 1979, s. 213]. Erm.SSR AS RH-nin 10.IX.1946-cı il fərmanı ilə dəyişdirilib Areni qoyulmuşdur [Bayramov, 2002, s. 37]. Arpa komponentli toponimlər XIX-XX əsr rus elmi mənbələrində Qafqazın digər ərazilərində də qeydə alınmışdır. Məsələn, Qarsda, Yeni Bəyaziddə Arpa-göl, Zəngəzurda Arpa-gədük, Arpatəpə, Zaqatalada Arpa-dərəsi, Kağızmanda Arpalı və s. bu kimi toponimlərin sayını artırmaq olar [Пагирев, 1913, s. 54]. Hazırda istər Azərbaycan ərazisində, istərsə də türk xalqlarının yaşadığı digər tarixi ərazilərdə arpa sözü ilə bağlı yaranmış obyektlərin sayı çoxdur: Arpa dağı (Ağsu, Şəmkir), Arpa dərəsi (Oğuz, Ağdam, Qubadlı, Daşkəsən, Qazax, Zəngilan, Kəlbəcər, Goranboy, Ordubad, Xanlar), Arpa düzü (Kəlbəcər), Arpa yalı (Kəlbəcər, Şuşa), Arpaçı günbəzi (Cəbrayıl), Arpa çökəyi (Tovuz, Xanlar), Arpa çuxuru (Qubadlı), Qarsda Arpaqala, Arpaşen, Gürcüstanda Arpalatala, Arpa kəndi, Krımda Arpalar, Qazaxıstanda Arpa suyu və s. Bu fakt toponimlərin etnonimdən törədiyini göstərir [Budaqov&Qeybullayev, 1998, s. 64]. Beləliklə, oykonimin arma/arba/arpa türk etnonimi əsasında yarandığını ehtimal etmək daha düzgün olardı.

**Kotan/Ketam.** XIX əsrdə Ordubad əyalətinin Ordubad mahalına aid *Kötan* [Шопен, 1852, s. 497], XX əsrin əvvəllərində Şərur-Dərələyəz qəzasında Kotanlı kəndidir [Пагирев, 1913, s. 175]. Hazırda Ermənistanda Paşalı (Əzizbəyov, Vayk) rayonunda Arpaçayın sağ qolu olan Kotanlıçayın sahilində yerləşir. 1918-ci ildə kəndin yerli sakinləri azərbaycanlılar ermənilər tərəfindən kənddən deportasiya olunmuş və kəndə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdir. 1988-ci il noyabrın 28-də kənddə yaşayan azərbaycanlılar öz dədə-baba yurdlarından qovulmuşdur. İndi burada ermənilər yaşayır. K.N.Smirnov kənd adını *Ketam/Ketan* şəklində qeyd edir və bu kənddə *gil* tayfalarının məskunlaşması haqqında məlumat verir [Смирнов, 1999, s. 27]. Müəllif yazır ki, Ketan “çirkli, təmiz olmayan” deməkdir. Bu adı burada yaşayan əhalinin məşğuliyyəti ilə əlaqələndirir. Belə ki, K.Smirnovun məlumatlarına görə, Ordubad rayonunun Ketan kəndində ağır əməklə məşğul olan qullar məskunlaşmışdı [Смирнов, 1999, s. 29]. Daha sonra isə tədqiqatçı kənd adı haqqında digər bir fikir irəli sürür: Adın *kedan* – “zəhmətkeş” sözündən yarandığını qeyd edir. O yazır: “Belə bir ehtimal vardır ki, burada qullar məskunlaşmışlar. Toponimin *kotan/xotan* etnonimi ilə bağlı yarandığı fikrindəyik.

**Axta kəndi.** XIX əsrdə Naxçıvan əyalətinin Dərələyəz mahalında [Смирнов, 1999, s. 489], XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında kənd olmuşdur. 1988-ci ilin noyabr ayında kənd sakinləri azərbaycanlılar Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Hazırda Ermənistanda Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənddir. Arpa çayının sol qolu olan Axtaçay dağ çayının sahilində yerləşir. İ.Paqirev eyni ərazidə həm də Aşağı Axta kənd adı qeydə almışdır [Пагирев, 1913, s. 58]. F.Qan kənd adını Axtı şəklində qeyd edir. Müəllif sözü yəhudi mənşəli achot – “bacı” sözü ilə əlaqələndirir və yazır ki, kəndin əsası bu yerlərə gəlmiş iki qardaşın bir bacısı tərəfindən qoyulmuşdur [Ганн, 1909, s. 19]. Müəllifin bu şərhi daha çox ehtimala əsaslanır. Tədqiqatçılar toponimin etnonim mənşəli olduğu fikrindədirlər. Belə ki, eyni adlı toponimlərə digər türkdilli ərazilərdə də rast gəlinir [Baxşıyeva, 2010, s. 139]. Bəzi tədqiqatçılar axtaçı tayfalarını qırğız-qıpçaq tayfa birliyinə, bəziləri isə padar tayfalarına aid edirlər [Nuriyeva, 1999, s. 139]. N.Nuriyeva qeyd edir ki, axtaçı tayfaları keçmişdə Tyan-Şan dağlarının ətəklərində yaşamışlar. Hazırda axtaçılar Özbəkistanın Fərqanə vilayətində yaşayan qıpçaqların bir qoludur [Nuriyeva, 1999, s. 139]. İ. Şahbazov yazır ki, axta sözünün tarixi Çingiz xanın hakimiyyəti dövrünə gedib çıxır. Belə ki, bu dövrdə atlara baxanlar və onları sıraya düzənlər axtaçı adlanırmışlar. Axtaçı böyük vəzifə hesab edilirdi. Monqollarda axta “at” deməkdir. Müəllif ehtimal edir ki, axtaçı adı sonradan nəsil adına çevrilmişdir [Шопен, 1852, s. 36]. Fikrimizcə, Axta məntəqə adı etnotoponimdir və quruluşuna görə sadədir.

**Kürkənd.** XX əsrin əvvəllərində Şərur-Dərələyəz qəzasına aid kənd olmuşdur [Пагирев, 1913, s. 187]. Mənbələrdə Kürd kəndi şəklində əks olunmuşdur. Hazırda Şərur rayonunda kənd adıdır. F.Qan qeyd edir ki, oykonim *kürd t*ayfa adı və *kənd* sözlərinin birləşməsindən meydana gəlmişdir [Ганн, 1909, s. 91 (623 başlıqla)]. Lakin bu fikir yanlışdır. Çünki kəndin adı tarixi mənbələrdə Kürçülü kimi qeyd olunmuşdur. Sonradan kəndin adı Kürkənd şəklində bərpa olunmuşdur [Rzayev, 2006, s. 181]. Hazırda indiki Qafan rayonu ərazisində kənd adıdır [Budaqov&Qeybullayev, 1998, s. 103]. Oykonim türk dillərində "igid", "coşqun" mənasında işlənən *kür* sözü əsasında yaranmışdır.

**Almalı kəndi.** XIX əsrdə Naxçıvan mahalında Almalı kəndləri adı altında 8 kənd – Kürədiz, Oğbin, Degin, İtqıran, Bzqov, Gərməçataq, Canıkənd, Sultanbəy kəndləri qeydə alınmışdır [Григорьев , 1833, s. 142]. S.P.Zelinski öz məqaləsində Almalını ayrıca kənd kimi qeyd edir [Şahbazov, 1979, s. 247]. XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasına aid Almalı kəndi olmuşdur [Пагирев, 1913, s. 47]. Almalı adı ilə həm Azərbaycanda, həm də türklər yaşayan digər ərazilərdə bir çox toponimlər vardır. Tədqiqatçıların fikrincə, bu tipli toponimlər etnonim səciyyəlidir. Hələb türkmənlərinin tayfa birliyinə daxil olan tayfalardan birinin almalı adlanması, qızılbaşların armalu tayfasının olması toponimin etnonimdən yaranmasını düşünməyə əsas verir [Bayramov, 2002, s. 30; Budaqov&Qeybullayev, 1998, s. 120].

**Arazdəyən.** 1918-20-ci ilə aid "Azərbaycanın siyasi xəritəsi"ndə Şərur-Dərələyəz qəzasına aid kənd kimi göstərilmişdir [Bağırov, 2008, s. 291]. İndi Ermənistanda Ararat rayonunda kənddir [Budaqov&Qeybullayev, 1998, s. 193]. Hazırda Sədərək rayonunda bir məhəllə Arazdəyən adlanır. Q.Qeybullayev və B.Budaqov yazır: "Arazdəyən (Arazdöyən) coğrafi adı o yerdə Araz çayı dərəsinin dar olması səbəbindən suyun bir sahilə istiqamətlənməsindən, onu yumasından yaranmışdır" [Budaqov&Qeybullayev, 2004, s. 33].

**Alxan pəyəsi kəndi.** XIX əsrdə Naxçıvan əyalətinin Dərələyəz mahalına [Смирнов, 1999, s. 488], XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasına aid kənd olmuşdur. Hazırda Ermənistanda Keşişkənd (Yeğeqnadzor) rayonunda kənddir. 1918-ci ildə kənd əhalisi öz yurdundan deportasiya olunmuşdur [Bayramov, 2002, s. 32]. XX əsr rus müəllifi F.Qan "SMOMPK"-ın 40-cı buraxılışındakı məqaləsində bu toponimin tatar mənşəli Əli xan şəxs adı əsasında meydana gəldiyini yazır. Pəyə sözünün "sütun (abidə)" mənasında işləndiyini yazır və kənd adını "Əlixanın sütunu" mənasında izah edir [Ганн, 1909, s. 9]. H.Mirzəyev yazır ki, bu kəndi Vəkilovlar nəslindən olan Alıxan salmışdır [Mirzəyev, 1997, s. 236]. Ona görə də kənd Alıxanpəyəsi adlandırılmışdır. Fikrimizcə, Alxanpəyəsi kənd öz adını alxanlı nəsil adından almışdır. Bu barədə S.P.Zelinski "Qafqazın ərazi və tayfalarının təsviri məcmuəsi"ndəki məqaləsində də yazır. O, qeyd edir ki, tatarlar bir-neçə tayfadan ibarətdir. Əlixanlı bu nəsillərdən biridir [Şahbazov, 1979, s. 247]. Beləliklə, Alxanpəyəsi "Alxanlı nəslinə aid pəyə" kimi izah oluna bilər.

## NƏTİCƏ

Naxçıvanın toponimik sistemi Qərbi və Cənubi Azərbaycan ərazilərinin toponimləri ilə yanaşı bir çox türk və qeyri-türk dövlətlərin toponimik sistemi ilə paralellik təşkil etməkdədir. Bu fakt isə dilçilik, tarix və coğrafiya kimi üç mühüm elm sahəsinin vəhdətində meydana gəlmiş toponimikanın sahib olduğu praktik rolun əhəmiyyətini bir daha vurğulayır. Qədim Azərbaycan torpaqlarında qondarma Ermənistan Respublikasının yaradılması mərhələli şəkildə həyata keçirilmiş və həmin siyasətin bir hissəsi kimi işğal olunmuş ərazilərin adları dəyişdirilərək, yaxud təhrif edilərək erməniləşdirilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, bəhs olunan siyasət iki istiqamətdə aparılmış, həm Azərbaycan SSR ərazisindəki coğrafi adlar, həm də Ermənistan SSR ərazisindəki türk mənşəli coğrafi adlar dəyişdirilərək saxtalaşdırılmışdır. Aparılmış tədqiqatlar göstərdi ki, Qərbi Azərbaycan ərazisində dəyişdirilmiş və ya təhrif edilmiş türk mənşəli toponimlərin bir hissəsi Nax-

çıvan Muxtar Respublikasının rayonlarında da paralel şəkildə qorunub saxlanılmışdır. Bu paralellik yalnız dilçilik aspektindən deyil, həm də tarixi, mədəni və etnik baxımdan dərin məna daşıyır. Toponimlərin müqayisəli təhlili sübut edir ki, bu adlar sadəcə coğrafi göstəricilər deyil, həm də xalqımızın tarixi yaddaşı, milli kimliyi və qədim türk varlığının izləridir. Deməli, biz təkcə Azərbaycan ərazisinin onomastik vahidlərini araşdırmaqla kifayətlənməməli, eyni zamanda indiki Ermənistan ərazisində yerləşən qədim yurd yerlərimizin tarixi adları istiqamətində də tədqiqatlar aparmalıyıq. Belə vahidlər hər bir dilin və həmin dilin daşıyıcısı olan xalqın tarixinin, etnogenezinin, keçdiyi inkişaf yollarının öyrənilməsində oynadığı müstəsna rol baxımından böyük elmi və siyasi əhəmiyyət daşıyır. Onomastik vahidlərin, o cümlədən, dilin toponimik sisteminin xalqın milli atributu sayılması və etnogenezi kimi qiymətləndirilməsi məhz bununla bağlıdır. Deməli, həm Azərbaycan Respublikası ərazisində yerləşən məntəqə adlarına, həm də işğal altında olan qədim yaşayış məskənlərimizə sadəcə xüsusi adlar kimi baxmaq düzgün deyil. Onlar həm də tariximiz, milli kimliyimiz, etnik mənsubiyyətimiz haqqında geniş məlumatlar əks etdirir. Zaman-zaman onomastik vahidlərimizin, eləcə də toponimik sistemimizin üzləşdiyi saxtalaşdırma və mənfur qonşularımız tərəfindən həyata keçirilən soyqırımı siyasəti həmçinin yuxarıda qeyd olunanlarla bağlıdır. Azərbaycanın milli mənşəli toponimlərinə qarşı törədilmiş soyqırımı dünya tarixində nadir hallardandır. Şübhəsiz, yaşlı, uşaq, qadın ayırmadan əliyalın xalqımıza, tarixi abidələrimizə, milli kimliyi olmayan meşə və başqa coğrafi obyektlərimizə qarşı törədilmiş vəhşiliklər dilimizdən yan ötüşmədi. Rusiyanın dəstəyi ilə həyata keçirilən onomastik vahidlərin erməniləşdirilməsi siyasətinin bir istiqaməti olaraq Türk mənşəli toponimlərin dəyişdirilməsi həyata keçirilmişdir. Qərbi Azərbaycan ərazisində yer adlarının dəyişdirilməsi siyasətinin nəticəsi kimi qədim adlar passiv toponimik fonda daxil edilsə belə xalqın yaddaşından silinməmişdir, lakin Şimali Azərbaycanda qısa müddət sonra həmin ərazilərin ilkin adları özlərinə qaytarılmışdır.

Qərbi Azərbaycan ərazisində müxtəlif tayfalara məxsus olan oykonimləri müəyyənləşdirmək üçün müraciət etdiyimiz qədim mənbələr bu ərazidə yaşamış tayfaların, qəbilələrin bütövlükdə Azərbaycan türkləri olduğunu, eləcə də bu toponimlərin həmin tayfaların dil vahidləri hesabına yarandığını sübut edir. Bu vahidlərinin bir çoxu bizim qədim dövrlərlə səsləşir ki, bu da dilimizin əski dövrlərinin tədqiqi istiqamətində xüsusi əhəmiyyət daşıyır. Sonda belə nəticəyə gəlirik ki, Qərbi Azərbaycan ərazisində müxtəlif tayfalara məxsus olan etnonim səciyyəli oykonimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

## ƏDƏBİYYAT

Bağırov, A. N. (2008). *Naxçıvan oykonimləri*. Nurlan.

Bayramov, İ. (2002). *Qərbi Azərbaycanın türk mənşəli toponimləri*. Elm.

Baxşıyeva, T.L. (2010). *Qafqazın türk mənşəli toponimləri*. Avropa.

Budaqov, B. & Qeybullayev, Q. (1998). *Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti*. Oguz eli.

Budaqov, B. & Qeybullayev Q. (2004). *Naxçıvan diyarının yer yaddaşı*. Nafta-press.

Ганн, К.Ф. (1909). Опыт объяснения Кавказских географических названий. *СМОМПК*, вып. 40, с. 1-64.

Григорьев, В. (1833). *Статистическое описание Нахичеванской провинции*. Типография Департамента внешней торговли.

Mirzəyev, H. (1997). *Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz*. ADPU.

Nuriyeva, M. (1999). *Qərbdən-şərqə ulu türk yurd adlarının dəyişdirilməsi tarixindən*. Elm.

Пагирев, Д.Д. (1913). *Алфавитный указатель к пятиверстной карт Кавказского края*. Типография К.П.Казловского.

Rzayev, F.H. (2006). *Qədim Şərur oykonimlərinin mənşəyi.* Kitab aləmi.

Смирнов, Н.К. (1999). *Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г)*. Озан ст.
Шопен, И., (1852). *Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российско империи*. Тип. Имп. Акад. наук.

Şahbazov, İ. (1979). Coğrafi adların xəritəsi. *Elm və həyat*, 1, s. 303.

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 22.01.2026**
**Son variant 18.02.2026**